


Sədərək rayonu 0,5 min kvadrat kilometr ölçüsündə olmaqla, ərazidə yalnız üç kənd Sədərək, Qaraağac və Kərki, inzibati vahid olmuşdur. Bununla da, yeni yaradılmış rayon mərkəzi olan Sədərək kəndi, qəsəbə adlandırılmışdır.

Sədərək rayonu 0,5 min kvadrat kilometr ölçüsündə olmaqla, ərazidə yalnız üç kənd Sədərək, Qaraağac və Kərki, inzibati tabelikdədir. Rayonun inzibati coğrafi ərazisi, Muxtar Respublikanın şimal-qərb tərəfində yerləşərək, şimaldan Ermənistanın Ararat rayonu, qərbdən Türkiyənin İqdır vilayəti və cənubdan isə Şərur rayonu ilə həmsərhəddir.

Rayonun tərkibindəki Kərki kəndi, haliyyədə Ermənistanın silahlı hərbi qüvvələri tərəfindən tutularaq, 1990-cı ilin yanvar ayından ermənilərin mühasirəsində qalmaqdadır. (Məlumat üçün bildirilir ki, kərkililər öz yurd yerlərindən müvəqqəti köçürülərək Kəngərli rayonu ərazisindəki yeni salınmış Kərkiz kəndində yerləşdirilmişlər.)

Sədərək rayonundakı coğrafi relyefin ən yüksək yeri Teykar (2034 m) dağı və ən alçaq sahəsi isə Araz çayı sahilində 780 metr dəniz səviyyəsindən yüksəkdədir.

Ərazidə təbii hidromənbələr yoxdur, yalnız Araz çayının "sol qolu" olan Cəhənnəmdərə çayıdır ki, bu da, ilin əksər aylarında quruyur. Ərazidəki əkin sahələri yalnız Araz çayı sahilindəki üzən su nasos qurğuları ilə suvarılırlar.

Sədərək rayonunun əhalisi qədim türkdilli oğuz tayfaları olmaqla əməksevər insanlardır. Statistik məlumata görə rayonun əhalisi 13 min 146 nəfərdir. Sədərəklilər əsasən uzunmüddətli və əkinçiliklə məşğul olaraq torpaq sahələrinin çox hissəsini dəmyə



*Sədərək rayonu Naxçıvan Muxtar Respublikasının cavan və kiçik inzibati ərazisi sayılır. Belə ki, buranın torpaq sahələri əvvəllər Şərur rayonuna tabe olmuşdur. Ərazidəki kəndlər rayon mərkəzindən uzaqda yerləşdiyindən, Sədərək rayonu adı ilə 1990-cı ildən ayrılaraq müstəqil inzibati vahid olmuşdur. Bununla da, yeni yaradılmış rayon mərkəzi olan Sədərək kəndi qəsəbə adlandırılmışdır.*

üsulla əkib-becərirlər.

Son illər rayon ərazisində mədəni-quruculuq işləri sürətləndirilərək əhalinin güzəranı yaxşılaşdırılmış və sovetlər dövrü ilə müqayisədə yüksək səviyyəyə qaldırılmışdır.

1992-ci ilin sentyabr ayından Araz çayı üzərindən Türkiyəyə keçmək üçün "Ümid körpüsü" tikilərək istifadəyə verilmişdir.

Sədərəklilər hər gün həmin yol ilə qardaş Türkiyə dövləti ərazisinə keçərək, öz iqtisadi problemlərini həll etməklə, maddi vəziyyətlərini zənginləşdirirlər. Sədərək vətəndaşları dövlət gömrük vergilərindən azad olmaqla istehsal etdikləri kənd təsərrüfatı məhsullarını aparıb sərbəst surətdə Türkiyənin İqdır, Qars və digər əyalət mərkəzlərində satırlar.

Naxçıvandan Sədərək rayonuna 88 km-lik məsafədə avtomobil və dəmiryolu rabitəsi vardır. Sədərək rayon mərkəzinə yaxın yerdə Naxçıvan-Yerevan avtomagistral yolu ətrafında yeni "Heydərabad" yaşayış sahəsi salınmışdır ki, burada inzibati binalar, yaşayış evləri, mədəni-məişət tikililəri də inşa olunmuşdur.

Sədərək rayonunda iki sayda mədəniyyət evi və klub müəssisələri fəaliyyət göstərirlər. Qəsəbədə iki sayda orta məktəb binası və məktəbdən kənar uşaq müəssisələri də, son illərdə tikilərək istifadəyə verilmişdir.

Sədərək elindən neçə-neçə əmək bahadırları hələ sovetlər dövründə şöhrət taparaq ad-san qazanmışlar. Onlardan üzüm ustası Süleyman Nəsirov və başqaları ilə sədərəklilər indi də fəxr edirlər. Sədərək rayonunda yaşayan yaradıcı ziyalılar, xalqın rəğbətini qazanmışlar.

Müqəddəs torpaqlarını vəsf edən şairlərdən V.Kərimov, K.Qədimov, Ə.Sədərəkli, Y.Cəfərov və başqaları yazdıqları şerlərində vətən, torpaq və mənəviyyatı ön planda göstərmişlər.

Qəhrəman sədərəklilər dəfələrlə bədnam qonşuları - erməni silahlılarının təcavüzünü mərdliklə qoruyaraq, düşmənlə üz-üzə döyüşmüşlər. Şair İbrahim Orucun sözləri ilə desək,

***Düşmənin önündə durub dağ kimi,***
***Dolanır elləri üzüağ kimi,***
***Daim dalğalanır bir bayraq kimi,***
***Sərhəddə oyaqdır sədərəklilər,***
***Polad tək dayaqdır sədərəklilər...***

***

Sədərək rayonu ərazisində qədim insanların yaşadıqları məskənlər olmuşdur ki, onlar ərazidə yaşamış türkdilli insanların tarixi keçmişlərindən xəbər verir. Onlardan Sədərək qədim insan məskənləri (e.ə.I minil), Kültəpə II qədim yaşayış yerləri (e.ə.IV-II minil), Çapaq qədim yaşayış yeri (e.ə.II-I minil), Kərki şəhərinin xərabəlikləri (e.ə.II-I minil), Sədərək mağarası (e.ə.VII-VI minil), "Çilədağ" qədim yaşayış yeri (e.ə.III-II minil), "Koroğlu qalası" xərabəlikləri (orta əsr XVII-XVIII yüzilliklər) və başqa tarixi arxeoloji mədəni) və başqa tarixi arxeoloji mədəniyyət yerlərinin adlarını demək olar.

Ərazidəki qədim Kərki şəhəri haqqında orta əsr Avropa səyyahları öz yazılarında göstərmişlər ki, şəhərdə 24 mindən artıq yaşayış tikililərində 65 mindən çox türkdilli oğuz qəbilələri (əhali) yaşamışdır... İstər Kərki şəhəri və istərsə də, Sədərək rayonu əraziləri orta əsrlərin məşhur "Böyük ipək yolu"nun üstündə olmuşdur.

Sədərəklilər mənəviyyata maraq göstərməklə, ərazidəki dinimifik ziyarətgahlara etiqadlı və inamlıdırlar. Buradakı mövcud pir və ocaq yerləri hələ islam dini ərazidə yayılmamışdan öncə insanlar tərəfindən yaradılacaq inac yerlərinə çevrilmişlər.

Sədərək qəsəbəsində haliyyədə beş sayda məscid vardır ki, onlardan "Qırxmirri", "Asni" və "Qurbanlı" məscidləri orta əsrlərdən qalmışlar. Burada son illərdə iki məscid binası da inşa olunmuşdur ki, onların hər birində eyni vaxtda min nəfərədək möminlər sərbəst surətdə ibadət edə bilərlər. Həmin məscidlərdən birini ümumxalq yardımı ilə, digərini isə sədərəkli xeyriyyəçi Yusif Qafaroğlunun şəxsi vəsaiti ilə tikdirmişlər.

Sədərək rayonu ərazisində müalicəvi əhəmiyyətli "Barjom tipli" soyuqsulu mineral bulaqlar da vardır ki, onlardan ən məşhuru Qaraburundakı "Koroğlu bulağı"nı göstərmək olar.

***

Naxçıvan Muxtar Respublikası ərazilərindəki inac yerlərinin əksəriyyətinin yaranma tarixi orta əsrlərdən başlayaraq, ətrafdakı sü-

filik cərəyanını inkişaf etdirən dərvişlərlə bağlıdır. Tərki dünya sayılan dərvişlər, özlərinə məxsus "hücrələrinə" qapanaraq yeni islam dini təriqətini təbliğ etmişlər. Onlar şəxsi həyatlarını başa vurduqdan sonra, məzar və hücrələri xalq tərəfindən qorunaraq pir yerlərinə çevrilmişlər. Belə yerlərdən ikisinə Sədərək rayonu ərazisində rast gəlinir ki, onlar "Teykar" və "Ağ oğlan" (Ağatlı) pirləridirlər.

"Teykar" piri rayonun Kərki kəndi ərazisindədir ki, hal-hazırda doxsanıncı ildən erməni silahlı qüvvələri tərəfindən tutulmuşdur. Həmin pirə ilin isti fəsillərində ətraf ərazilərdən ziyarətçilər axışıb gələr və pirdə qurbanlıq kəsməklə ibadətlə məşğul olardılar.

Teykar sözü, ərəb mənşəli olaraq xatırlama, yada salma deməkdir. Türk oğuzları həmin pirə Təkrar adını da vermişlər. Səbəbi isə həmin pir yeri Kərkinin şimal-qərbindəki Təkrar adlı təpənin üstündə, ardıc kolları arasındadır. Maraqlı hadisələrdən biri də, odur ki, həmin ərazidə bitmiş sıx ardıc kollarından hər kim kəsib aparmaqla, ciddi zərər çəkənlərdən olmuşdur.

"Teykar" pirində məzar yeri yoxdur, lakin buradakı təmiz hava, sərin və dupduru bulaq suyu ilə mənzərəli yaşıllıq gələnləri heyrətə salır. Ziyarətə gələnlər qurbanlıq kəsməklə bulaq başında bitmiş qocaman ardıc kollarının budaqlarına arzu və niyyətlərinə görə rəngli parçalar bağlayardılar.

Pir yerində yağmurdan qorunmaq üçün kiçik daxmayabənzər tikili vardır ki, orada bir neçə sayda müxtəlif ölçülü qara daşlar-meteoritlər saxlanılardı. "Teykar" piri 1990-cı ilədək (ermənilər tərəfindən ərazi zəbt olunmuş) mütəxəssislər tərəfindən öyrənilməmişdir.

Sədərək rayonu ərazisində digər bir məşhur inanc yerlərindən olan "Ağ oğlan" piridir. "Ağ oğlan" piri rayondakı Dərələyəz silsiləsinin cənub-şərq yamacındakı Ucubiz dağının ətəyində yerləşir. Həmin pirdə yaxın vaxtlarda sədərəkli xeyriyyəçi Yusif Qafaroğlunun yardımı ilə təmir-bərpa işləri aparılmışdır. "Ağ oğlan" pirinə ətraf kəndlərdən müsəlmanlar axışaraq ilin bütün fəsillərində gəlib, qurbanlar kəsər, niyyət edərək müşgül işlərinin rəvan olması üçün Yaradanın möcüzələrini arzulayardılar.

"Ağ oğlan" pirinin yaranması (hicri 920 miladi, 1514-cü illərdə səfəvilər şahı, I İsmayılın dövründə tarixi Çaldıran savaşlarından sonra olmuşdur. Belə ki, Şah I İsmayıl ərazidə olarkən onun oxşarını Xızrı yerli Çuxursəəd xalqına göstərməklə "qeyb olması"ndan sonra müqəddəs "ağ oğlan" adı ilə adlandırılaraq "zühurunu" arzulatdırmışdır.

Şiə müsəlmanlarının 12-ci imamı Mehdi həzrətləri Allah tərəfindən onu "zamanın sahibi" kimi də təbliğ edərək zühurunu istəmişlər.

Buna görə də, tarixi dövrlərin qanlı döyüşlərində bir çox sərkərdələr kimi, Şah I İsmayıl da, döyüşlərdə özünə oxşarını "ağ atlı, ağ geyimli oğlan"dan məharətlə istifadə etmişdir.

Uzun illər ərzində yerli əhali hansısa dərvişin sözü ilə orada (pirdə) Allaha qurbanlar kəsməklə və daş üzərində olan "ağ atlı oğlan"ın mindiyi at nalının izlərini ziyarət edərlər. Çox maraqlıdır ki, haqqında danışılan pirlərə, hələ çox-çox əvvəllər yaşamış sədərəkli şeyxlərdən Hacı Mirzə Ələkbər, Hacı Mirzə Hüseyn, Şeyx Rza əfəndi, Qaragöz Axund və başqaları, insanların möcüzəvi inac yerləri kimi müqəddəs ziyarətgahlar bilmişlər...

***

Azərbaycanın mənəvi tarixi mənbələrində "Naxçıvan çuxuru" adlanan Nuh yurdu ərazilərindəki dini-mifik ziyarətgahlar lazımınca mütəxəssislər tərəfindən öyrənilməmişdir. Bütün bunlara səbəb isə, sovetlər ölkəsindəki ateizm təbliğatının güclü olması ilə əlaqədar, xalqın inanc yerlərinə ziyarətlərə yasaq qoyulması və yaddaşlardan silinməsidir.

Artıq on beş ildir ki, Azərbaycan xalqı öz müstəqilliyini tapmış, bütün sahələrdə olduğu kimi, tarixi və dini-mifik ziyarətgahlarda, dindar müsəlmanların üzünə açılaraq inam, etiqad və ibadət həsrətinə son qoyulmuşdur. Bütün bu işlərin inkişaf etdirilməsi üçün Muxtar Respublika Ali Məclisi səviyyəsində qayğı göstərilərək qərarlar verilmişdir.

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Mədəniyyət və Turizm şöbəsinin təbliğatçıları, bu sahədə lazımi işlər görərək, turizm sahəsinin inkişafına diqqəti artırmışlar. Tarixi və arxeoloji abidələrlə yanaşı, dini ziyarətgahlar da, elmi əsaslarla öyrənilərək xalqa çatdırılır. Bu işdə Naxçıvan MR Tarixi və Arxeoloji Abidələrin qorunub saxlanılması cəmiyyəti ilə birgə Elmi-Bərpa İdarəsinin əməkdaşları da, əllərindən gələni əsirgəmirlər. Təkcə son beş ildə onlarca belə abidələr bərpa olunaraq xalqa çatdırılmışdır.

**Feyruz BAĞIROV,**
**Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi Elmi Metodik Mərkəzin şöbə müdiri**